## "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç-ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasının təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. həmin Qanunun 4.3-cü maddəsində nəzərdə tutulmuş Dövlət Qulluğunu İdarəetmə Şurası yanına Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. öz səlahiyyətləri daxilində "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi yaradılsın.

3. Azərbaycan Respublikasının Baş prokuroru bir ay müddətində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin səlahiyyətləri, funksiyaları və fəaliyyətinin təmin edilməsi ilə əlaqədar digər məsələlər barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti aidiyyəti dövlət orqanları ilə birlikdə iki ay müddətində "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğunlaşdırmaqla "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nın layihəsini təkmilləşdirib Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 3 mart 2004-cü il**
**№ 114**